№ 17-18 (825) 30 sentyabr 2025-ci il ● Qəzet 1991-ci ildən nəşr olunur ● www.health.gov.az; ● www.tibbqazeti.az

# TİBB qəzeti

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi



Narkomaniya ilə mübarizə üzrə yeni Dövlət Proqramı qəbul edildi

3



Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI

4



Heydər Əliyev Fondu Vatikanın Bambino Gesu xəstəxanası ilə anlaşma memorandumu imzalayıb

5

## Prezident İlham Əliyev Qarabağ Universitetinin Klinikasının binasının, Tibb və sağlamlıq elmləri fakültəsinin tədris korpusunun açılışında iştirak edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xankəndi şəhərində Qarabağ Universitetinin Klinikasının binasının, Tibb və sağlamlıq elmləri fakültəsinin tədris korpusunun açılışında iştirak edib.

2



## «İşğaldan azad edilmiş ərazilərdə tibbi xidmətin təşkili» İşçi qrupunun ilk iclası keçirilib

Səhiyyə Nazirliyində ölkəmizin işğaldan azad edilmiş ərazilərində tibbi xidmətin təşkili ilə bağlı yaradılmış İşçi qrupun ilk iclası olub.

Səh. 6

## Səhiyyə naziri Teymur Musayev: Azərbaycanda səhiyyə islahatları milli standartlardan beynəlxalq standartlara keçidə yönəlib



ARASH MEDICAL COMPANY

Tel: (994 12) 530 15 15
(994 50) 255 15 15
(994 77) 277 22 77
Faks: (994 12) 530 44 44



www.arash.az

## 25 sentyabr - Ümumdünya Əczaçılar Günüdür!

## «Gen Pharma Caucasus»:

*Azərbaycanın əczaçılıq sənayesində yeni dövr*



11

# Prezident İlham Əliyev Qarabağ Universitetinin Klinikasının binasının, Tibb və sağlamlıq elmləri fakültəsinin tədris korpusunun açılışında iştirak edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xankəndi şəhərində Qarabağ Universitetinin Klinikasının binasının, Tibb və sağlamlıq elmləri fakültəsinin tədris korpusunun açılışında iştirak edib.**






AZƏRTAC xəbər verir ki, elm və təhsil naziri Emin Əmrullayev, Qarabağ Universitetinin rektoru Şahin Bayramov və Qarabağ Universitetinin Klinikasının rəhbəri, Tibb və sağlamlıq elmləri fakültəsinin dekanı Samir Babayev dövlət başçısına yaradılan şərait barədə məlumat veriblər.

Bildirilib ki, yeni tədris ilindən Qarabağ Universitetində Tibb və sağlamlıq elmləri fakültəsi fəaliyyətə başlayacaq. Fakültənin tədris korpusu müasir tələblərə cavab verən avadanlıqla təchiz edilib. Binada 10 dərs və 9 auditoriya otağı, 3 laboratoriya, iş və imtahan otaqları, istirahət zonaları, kitabxana, brifinq zalları yaradılıb. Burada həmçinin mikrobiologiya, histologiya, hüceyrə yetişdirmə laboratoriyaları və inzibati otaqlar fəaliyyət göstərəcək.




Fakültədə yerli və xarici ekspertlərin birgə hazırladığı, beynəlxalq təcrübələrə əsaslanan altıillik tibb və dördillik tibb bacısı proqramlarının tədrisi həyata keçiriləcək. Burada tətbiq olunacaq müasir təhsil modeli tələbələrin nəzəri biliklərini Qarabağ Universitetinin Klinikasında praktik vərdişlərə çevirməyə imkan yaradacaq. Tələbələrə tədqiqat aparmaq və liderlik keyfiyyətlərini inkişaf etdirmək üçün də hərtərəfli imkanlar veriləcək. Fakültənin fərqli xüsusiyyətlərindən biri isə seçmə fənn olaraq incəsənət proqramının tədris planına daxil edilməsidir. İncəsənət tələbələrin özünüifadə, qrup daxilində əməkdaşlıq və ünsiyyət bacarıqlarının inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir.

Dövlət başçısı Qarabağ Universitetinin Klinikasının binasında yaradılmış şəraitlə tanış olub. Klinika Prezident İlham Əliyevin bu ilin fevralında imzaladığı Fərmana əsasən yaradılıb. Klinikanın binasında 23 həkim otağı, laboratoriyalar, rentgen, təcili yardım, maqnit rezonans tomoqrafiyası (MRT), kompüter tomoqrafiyası (KT) və angioqrafiya otaqları fəaliyyət göstərəcək. Qısa müddət ərzində ali təhsil ocağında tibb sahəsi üzrə müasir tədris infrastrukturu yaradılıb. Klinika Qarabağ Universitetində tibb ixtisası üzrə təhsil alan tələbələrin peşəkar kadr kimi hazırlanmasını təmin edəcək, bu sahədə elmi tədqiqatlar aparmağa imkan verəcək, həmçinin regionda əhalinin sağlamlığının qorunmasında mühüm rol oynayacaq. Burada, eyni zamanda, tədris, tədqiqat və tibbi xidmət fəaliyyəti həyata keçiriləcək.

Qarabağ Universitetində Klinikanın yaradılması, həmçinin Tibb və sağlamlıq elmləri fakültəsinin fəaliyyətə başlaması yeni dövrün çağırışlarına uyğun peşəkar tibb mütəxəssislərinin hazırlanması istiqamətində atılmış mühüm addımlardandır. Digər tərəfdən, klinikada həyata keçiriləcək elmi tədqiqatlar Qarabağ Universitetinin akademik nüfuzunun və beynəlxalq reytinqinin artmasına, eləcə də ölkəmizdə tibb elminin inkişafına öz töhfəsini verəcək. Bütün bunlar xarici tələbələrin də bu ali təhsil ocağına marağını artıracaq.




## R.M.Məmmədhəsənovun 2-ci dərəcəli «Əmək» ordeni ilə təltif edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Rafiq Musa oğlu Məmmədhəsənov 2-ci dərəcəli «Əmək» ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 29 sentyabr 2025-ci il*

# Narkomaniya ilə mübarizə üzrə yeni Dövlət Proqramı qəbul edildi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı» təsdiq edilib.**

Bu sahədə mübarizənin gücləndirilməsi, həyata keçirilən sistemli və kompleks tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə qəbul olunan Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin əlaqələndirilməsi və icrasına nəzarət Azərbaycan Respublikasının Nazirlər Kabinetinə həvalə olunub.

Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini aparmaq, onların icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasına tapşırılıb.

Dövlət başçısının 2025-ci il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş bu Dövlət Proqramında ilk növbədə qlobal trendər şərh olunur. Bildirilir ki, Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin 2030-cu ilə qədər dünyada narkotik istifadəçilərinin sayının əlavə 11 faiz artmasına dair proqnozları qlobal miqyasda narkotik istifadəsinin ciddi bir problem olaraq qaldığını göstərir və bu sahədə daha effektiv tədbirlərin həyata keçirilməsi, dövlətlər üçün milli təhlükəsizliyin təmin edilməsi baxımından yeni çağırışlar doğurur. Həmçinin qeyd olunur ki, XXI əsrin qlobal trendləri və müasir çağırışları narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə rəqəmsal nəzarət sistemlərinin və hüquqi çərçivədə innovativ metodların tətbiqini, dayanıqlılıq təmin edən bir sistemin qurulmasını zəruri edir.

Dövlət Proqramında mövcud vəziyyətin təhlili zamanı bildirilir ki, Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinin təqdim etdiyi məlumata görə, 2024-cü ilin sonuna dispanser qeydiyyatında olan narkotik istifadəçilərinin sayı 40490 nəfər olmuşdur. Onlardan 39485 nəfəri kişi, 1005 nəfəri isə qadındır. Qeydiyyatda olanların 20182 nəfəri opioidlərin, 8611 nəfəri kannabinoidlərin, 11697 nəfəri isə eyni zamanda bir neçə narkotik maddənin qəbul edilməsi nəticəsində psixi və davranış pozuntuları yaranmış şəxslərdir.

Proqramın hədəf göstəricisi kimi müəyyənləşdirdiyi bəndlər sırasında narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin həyata keçiriləcəyi yeni tibb müəssisəsinin fəaliyyətinin təmin edilməsi, narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslərin könüllülük prinsipi əsasında müalicəsinin və sağlam həyat tərzinə qaytarılmasının təşkilində səmərəliliyin artırılması, bu xəstəlikdən xilas olan şəxslərin cəmiyyətə inteqrasiyasına və məşğulluğuna yönəldilmiş layihələrin həyata keçirilməsi, eləcə də uşaq və gənclər arasında milli-mənəvi dəyərlərə sadiq olan, sağlam və narkomaniyadan uzaq gəncliyin formalaşması kimi hədəflər nəzərdə tutulur.

Ölkəmizdə narkoloji xidmətin təkmilləşdirilməsi və maddi-texniki bazasının möhkəmləndirilməsi Dövlət Proqramının məqsədlərindən biridir.

Sənədin «Dövlət Proqramının prioritet istiqamətləri» bölməsində səhiyyəyə, o cümlədən narkoloji xidmətə aid bir sıra müddəalar yer alıb. Qeyd olunur ki, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin, habelə narkomanlığın yayılmasının qarşısının alınması, göstərilən sahədə hüquq mühafizə, səhiyyə və digər aidiyyəti dövlət orqanlarının işinin daha səmərəli icrasının təmin edilməsi məqsədilə təşkilati tədbirlərin gücləndirilməsinə ehtiyac vardır. Görüləcək tədbirlər kimi, yeni narkoloji tibb müəssisəsinin, müvafiq profilli reabilitasiya mərkəzlərinin yaradılması, mövcud dövlət narkoloji tibb müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, həkim-narkoloq və klinik (tibbi) psixoloqların sayının artırılması, rayon (şəhər) xəstəxanalarında və poliklinikalarında fəaliyyət göstərən narkoloji tibb kabinetlərinin işinin təkmilləşdirilməsi istiqamətində tədbirlər sadalanır. Eləcə də, narkomanlığın cəmiyyətə və insan sağlamlığına zərəri barədə təbliğat, sağlam həyat tərzinin təşviqi, istifadəçi şəxslərin vaxtında aşkarlanması, könüllülük prinsipi əsasında müalicəsi məqsədilə tibb müəssisələrinin ərazi üzrə polis orqanları ilə qarşılıqlı əlaqələrinin genişləndirilməsi nəzərdə tutulur.

«Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı»nda digər əlaqədar qurumlarla yanaşı, Səhiyyə Nazirliyinə də bir sıra tədbirlər görmək həvalə olunub. Bunların bir qismində Səhiyyə Nazirliyi əsas icraçı orqan, digər bir qismində isə icraçı qurumlardan biridir.

Belə ki, «Təşkilati tədbirlər» bölməsində «Narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin həyata keçiriləcəyi yeni tibb müəssisəsinin fəaliyyətə başlamasının təmin edilməsi», «Narkoloji xidmətin keyfiyyətinin yaxşılaşdırılması məqsədilə reabilitasiya mərkəzlərinin yaradılması», «Narkomanlıq xəstəliyindən əziyyət çəkən şəxslərin müalicəsinin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasında fəaliyyət göstərən dövlət narkoloji tibb müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi», «Narkoloji xidmətin təkmilləşdirilməsi və peşəkar kadrlarla təmin olunması məqsədilə həkim-narkoloq və klinik (tibbi) psixoloqların sayının artırılması istiqamətində əlavə tədbirlər görülməsi» bəndlərinin əsas icraçısı Səhiyyə Nazirliyidir.

Nazirlik həmçinin «Narkotik asılılığının qarşısının alınması məqsədilə beynəlxalq təcrübədə olan yeniliklərin tətbiqi», «Narkotik istifadəçiləri və onların yaxın qohumları, habelə onlarla birgə yaşayan digər şəxslər üçün onlayn məsləhətlər verilməsi məqsədilə klinik (tibbi) psixoloq və həkim-narkoloqların iştirakı ilə virtual dəstək mexanizminin yaradılması», «Narkotik asılılığından əziyyət çəkən şəxslərin müalicəsi prosesində tətbiq üçün psixoloji dəstək proqramlarının hazırlanması» bəndlərinin də əsas icraçısı olaraq müəyyənləşdirilib.

Narkomanlığın erkən müəyyən edilməsi və könüllülük prinsipi əsasında müalicənin səmərəli təşkili məqsədilə rayon (şəhər) xəstəxanalarında və poliklinikalarında fəaliyyət göstərən narkoloji tibb kabinetlərinin işinin təkmilləşdirilməsi istiqamətində əlavə tədbirlər görülməsi əsas icraçı olaraq həm Səhiyyə Nazirliyinə, həm də Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinə (TƏBİB) həvalə olunub.

Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığın yayılmasına qarşı mübarizə sahəsində beynəlxalq təcrübədən istifadə etməklə əməkdaşların peşəkarlığının yüksəldilməsi və təcrübə mübadiləsi məqsədilə seminarların, təlimlərin və digər tədbirlərin keçirilməsi digər dövlət qurumları ilə yanaşı, Səhiyyə Nazirliyinin də öhdəliyidir.

Tədbirlər Planının «Normativ hüquqi bazanın təkmilləşdirilməsi» adlanan 2-ci bölməsində əsas icraçısı Nazirlər Kabineti olan bir sıra bəndlər üzrə Səhiyyə Nazirliyi icraçılardan biridir. Bu bəndlər narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsini tənzimləyən, narkotik asılılığı olan şəxslərin narkoloji xəstələr üçün fəaliyyət məhdudiyyəti nəzərdə tutulmuş peşə növü və vəzifələr üzrə işə qəbulunun qarşısının alınmasından ötrü işəgötürənin məsuliyyətinin artırılmasına yönəldilmiş, eləcə də narkomanlıq xəstəliyinə düçar olan şəxslərin müalicəsi və reabilitasiyası sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflər verilməsini nəzərdə tutur. Bununla yanaşı, Azərbaycan Respublikasının vətəndaşlarına, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə narkotik istifadəçisi kimi qeydiyyatda olub-olmaması barədə arayışların verilməsi prosesinin sadələşdirilməsi məqsədilə bu xidmətin «ASAN xidmət» mərkəzləri tərəfindən həyata keçirilməsi üçün normativ hüquqi aktlarda dəyişiklik edilməsi planlaşdırılır.

Sənədin «Beynəlxalq tədbirlər» bölməsində «Narkotik vasitələrin qeyri-tibbi qəbulunun qarşısının alınması istiqamətində maarifləndirmə işinin səmərəli təşkili məqsədilə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi» bəndində Səhiyyə Nazirliyi əsas icraçı, TƏBİB isə icraçılardan biridir.

«Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin və narkomanlığın qarşısının alınmasına dair beynəlxalq konfranslarda, seminarlarda və digər tədbirlərdə aidiyyəti dövlət orqanları (qurumları) mütəxəssislərinin iştirakının təmin edilməsi» bəndinin icrası isə digər qurumlarla yanaşı, Səhiyyə Nazirliyinə də həvalə olunub.

Tədbirlər Planının «Profilaktika və maarifləndirmə tədbirləri» bölməsinin «Narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslərin vaxtında aşkarlanması, könüllülük prinsipi əsasında müalicəsi və sağlam həyat tərzinə qaytarılması işinin təşkilində tibb müəssisələrinin ərazi üzrə polis orqanları ilə qarşılıqlı əlaqələrinin genişləndirilməsi» bəndinin əsas icraçısı olaraq Səhiyyə Nazirliyi və TƏBİB müəyyən edilib.

Həmin bölmənin «Narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslər arasında aparılan profilaktik tədbirlərin keyfiyyətinin artırılması məqsədilə həmin tədbirləri icra edən şəxslərin peşəkarlığının yüksəldilməsi üzrə təlimlərin keçirilməsi» bəndində Səhiyyə Nazirliyi əsas icraçı, TƏBİB icraçılardan biridir.

Narkomanlıq xəstəliyindən xilas olan şəxslərin əmək bazarına inteqrasiyası və məşğulluq imkanlarına çıxışının təmin edilməsi digər qurumlarla yanaşı, Səhiyyə Nazirliyinə və TƏBİB-ə tapşırılıb.

Tədbirlər Planının «Ümumtəhsil müəssisələrinin yuxarı sinif şagirdləri arasında təbliğat işlərinin daha təsirli metodlarla aparılması, rayon və şəhərlərdə uşaq və gənclər arasında maarifləndirmə işinin səmərəli təşkili məqsədilə müxtəlif mövzularda seminar, konfrans, dəyirmi masa və digər tədbirlərin keçirilməsi, həmçinin idman yarışlarının təşkili» və «Narkomanlığın profilaktikasının daha səmərəli təşkili məqsədilə ümumtəhsil müəssisələrində çalışan psixoloq və tibb işçiləri üçün təlimatın təsdiq edilməsi» bəndlərinin icrasında Səhiyyə Nazirliyi də iştirak edəcək.

Narkomanlığın xüsusilə geniş yayıldığı rayon və şəhərlərdə narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı kompleks tədbirlərin həyata keçirilməsi digər qurumlarla yanaşı, Səhiyyə Nazirliyinə və TƏBİB-ə tapşırılıb.

Həmçinin «Narkotik vasitələrin və psixotrop maddələrin qəbulu ilə bağlı problemlər haqqında idmançıları maarifləndirmək məqsədilə müasir metodiki vəsaitlərdən istifadə etməklə təbliğat işinin təşkili, bu sahədə qadağan edilmiş maddə və üsullardan istifadəyə qarşı mübarizə mexanizmlərinin təkmilləşdirilməsi, aidiyyəti dövlət orqanları (qurumları) ilə əlaqə yaradılması və mövcud beynəlxalq təcrübənin tətbiqi», «Qeyri-hökumət təşkilatları nümayəndələrinin narkotik vasitələrə və psixotrop maddələrə dair təyin edilmiş ekspertizalar, həmçinin narkotik asılılığından müalicə və reabilitasiya prosesi barədə məlumatlandırılması məqsədilə görüşlərin təşkili», «Narkotik və psixotrop maddələr haqqında məlumatlılığın artırılması məqsədilə ümumtəhsil müəssisələrinin rəhbərliyi, müəllimləri, psixoloqları, valideynlər şurasının üzvləri və şagirdləri üçün seminarların keçirilməsi», «Uşaq və gənclərin iştirakı ilə narkomaniya, alkoqolizm və toksikomanlığa qarşı poster, videoçarx, qısametrajlı film və fləş-mobların hazırlanması» və «Antinarkotik təbliğatı və təşviqatı işlərinin gücləndirilməsi məqsədilə maarifləndirici əyani vəsaitlərin hazırlanması» bəndlərinin icrası üzrə də Səhiyyə Nazirliyinin üzərinə müəyyən öhdəliklər düşür.

Sənəddə hər bir bənd üzrə ilkin, aralıq və yekun nəticələr kimi nəticə indikatorları da şərh olunub.

# «Çernobıl AES-də qəza nəticəsində köçürülmə günü ana bətnində olan uşaqlar da daxil olmaqla, uzaqlaşdırma və köçürülmə zonalarından köçürülmüş uşaqların və ya 18 yaşınadək yeniyetmələrin, habelə 1986-cı il aprelin 26-dan sonra doğulmuş və Çernobıl AES-də qəzanın nəticələrinin ləğv edilməsinin iştirakçısı olmuş, yaxud Çernobıl qəzası nəticəsində zərər çəkmiş və birbaşa radioaktiv şüalanmaya məruz qalmaq ehtimalı olmuş valideynlərin birindən olan uşaqların, qaçqın və ya məcburi köçkün (ölkə daxilində köçürülmüş şəxs) statusu almış müvəqqəti yaşayış yerində və xəstəxanalarda qocaların, uşaqların, aztəminatlı və ailə başçısını itirmiş şəxslərin, İİV/QİÇS-lə xəstələnmiş vətəndaşların dərman preparatları ilə təmin olunması Qaydası»nın təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 7 mart tarixli 38 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI***

**Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:**

«Çernobıl AES-də qəza nəticəsində köçürülmə günü ana bətnində olan uşaqlar da daxil olmaqla, uzaqlaşdırma və köçürülmə zonalarından köçürülmüş uşaqların və ya 18 yaşınadək yeniyetmələrin, habelə 1986-cı il aprelin 26-dan sonra doğulmuş və Çernobıl AES-də qəzanın nəticələrinin ləğv edilməsinin iştirakçısı olmuş, yaxud Çernobıl qəzası nəticəsində zərər çəkmiş və birbaşa radioaktiv şüalanmaya məruz qalmaq ehtimalı olmuş valideynlərin birindən olan uşaqların, qaçqın və ya məcburi köçkün (ölkə daxilində köçürülmüş şəxs) statusu almış müvəqqəti yaşayış yerində və xəstəxanalarda qocaların, uşaqların, aztəminatlı və ailə başçısını itirmiş şəxslərin, İİVQİÇS-lə xəstələnmiş vətəndaşların dərman preparatları ilə təmin olunması Qaydası»nın təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 7 mart tarixli 38 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 3, maddə 252 (Cild I); 2024, № 9, maddə 1101) aşağıdakı dəyişikliklər edilsin:

1. Adına və 1-ci hissəyə «dərman preparatları ilə» sözlərindən sonra «, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etmiş şəxslərin və şəhid ailələrinin dərman vasitəsi kimi tibbdə istifadə edilən psixotrop maddələrlə» sözləri əlavə edilsin.



2. Həmin Qərarla təsdiq edilmiş «Çernobıl AES-də qəza nəticəsində köçürülmə günü ana bətnində olan uşaqlar da daxil olmaqla, uzaqlaşdırma və köçürülmə zonalarından köçürülmüş uşaqların və ya 18 yaşınadək yeniyetmələrin, habelə 1986-cı il aprelin 26-dan sonra doğulmuş və Çernobıl AES-də qəzanın nəticələrinin ləğv edilməsinin iştirakçısı olmuş, yaxud Çernobıl qəzası nəticəsində zərər çəkmiş və birbaşa radioaktiv şüalanmaya məruz qalmaq ehtimalı olmuş valideynlərin birindən olan uşaqların, qaçqın və ya məcburi köçkün (ölkə daxilində köçürülmüş şəxs) statusu almış müvəqqəti yaşayış yerində və xəstəxanalarda qocaların, uşaqların, aztəminatlı və ailə başçısını itirmiş şəxslərin, İİV/QİÇS-lə xəstələnmiş vətəndaşların dərman preparatları ilə təmin olunması Qaydası» üzrə:

2.1. adına və 1-ci hissəyə «dərman preparatları ilə» sözlərindən sonra «, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etmiş şəxslərin və şəhid ailələrinin dərman vasitəsi kimi tibbdə istifadə edilən psixotrop maddələrlə» sözləri əlavə edilsin;

2.2. aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:

«1-1. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etmiş şəxslər və şəhid ailələri bu Qaydaya uyğun olaraq dərman vasitəsi kimi tibbdə istifadə edilən psixotrop maddələrlə təmin olunurlar.»;

2.3. 3-cü və 5-ci hissələrdə ismin müvafiq hallarında «müalicə-profilaktika müəssisələri» sözləri ismin müvafiq hallarında «tibb müəssisələri» sözləri ilə əvəz edilsin;

2.4. 4-cü hissə üzrə:

2.4.1. birinci abzasda «müalicə-profilaktika müəssisələrində» sözləri «tibb müəssisələrində» sözləri ilə əvəz edilsin;

2.4.2. ikinci abzasda «dövlət büdcəsində Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi üçün» sözləri «dövlət tibb müəssisələrinin xərclərində» sözləri ilə əvəz edilsin;

2.5. 6-cı hissə ləğv edilsin.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**

*Bakı şəhəri, 9 sentyabr 2025-ci il.*

# Bəzi tibbi sənədlərin məlumatları Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilə bilər

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov «Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, «Əhalinin sağlamlığının qorunması haqqında», «Yol hərəkəti haqqında», «Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında», «Tibbi sığorta haqqında», «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında», «Daşınmaz əmlakın dövlət reyestri haqqında», «Ünvanlı dövlət sosial yardımı haqqında», «Sosial müavinətlər haqqında», «Əmək pensiyaları haqqında», «Təhsil haqqında», «İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında», «İcbari sığortalar haqqında», «Lisenziyalar və icazələr haqqında», «Əlilliyi olan şəxslərin hüquqları haqqında» və «Məşğulluq haqqında» Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 120-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında Nazirlər Kabinetinin Qərarını imzalayıb.

Dəyişikliklərə əsasən, səhiyyə ilə bağlı bəzi sənədlərdəki məlumatların elektron qaydada əldə edilməsi və təqdim olunması təsbit edilib.

Belə ki, «Təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydaları»nın təsdiq edilməsi haqqında» Nazirlər Kabinetinin 2010-cu il 29 aprel tarixli 82 nömrəli Qərarında dəyişikliklərə əsasən, həmin Qərarla təsdiq edilmiş «Əsas (baza ali) tibb təhsili və rezidentura təhsili haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydası»na aşağıdakı məzmunda 4.14-cü bənd əlavə edilib:

«4.14. Diplomda göstərilən məlumatlar Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilə (əldə edilə) bilər. Diplomda göstərilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilməsi diplomun təqdim edilməsinə bərabər tutulur».

«Orta ixtisas təhsili pilləsində təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydası»na da müvafiq məzmunda bənd əlavə olunub.

Qərarın digər maddəsinə əsasən, Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 5 nömrəli Qərarı ilə təsdiq edilmiş «İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi»nə aşağıdakı məzmunda 1.2-1-ci bənd əlavə edilib:

«1.2-1. Göndərişdə göstərilən məlumatlar Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilə (əldə edilə) bilər. Göndərişdə göstərilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilməsi göndərişin təqdim edilməsinə bərabər tutulur».

Nazirlər Kabinetinin 2020-ci il 20 mart tarixli 101 nömrəli Qərarı ilə təsdiq edilmiş «İcbari tibbi sığorta şəhadətnaməsi»nin Nümunəvi forması»nın Qeyd hissəsinə aşağıdakı məzmunda ikinci abzas əlavə olunub:

«İcbari tibbi sığorta şəhadətnaməsi Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilə (əldə edilə) bilər. İcbari tibbi sığorta şəhadətnaməsində göstərilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilməsi icbari tibbi sığorta şəhadətnaməsinin təqdim edilməsinə bərabər tutulur.».

Həmçinin Nazirlər Kabinetinin 2021-ci il 24 iyun tarixli 182 nömrəli Qərarı ilə təsdiq edilmiş «Könüllü tibbi sığorta şəhadətnaməsinin forması və onun tətbiqi Qaydaları»na aşağıdakı məzmunda 2.5-ci bənd əlavə edilib:

«2.5. Könüllü tibbi sığorta şəhadətnaməsi Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilə (əldə edilə) bilər. Könüllü tibbi sığorta şəhadətnaməsində göstərilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilməsi könüllü tibbi sığorta şəhadətnaməsinin təqdim edilməsinə bərabər tutulur».

# Heydər Əliyev Fondu Vatikanın Bambino Gesu xəstəxanası ilə anlaşma memorandumu imzalayıb



**Heydər Əliyev Fondu, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Müqəddəs Taxt-Tacın Bambino Gesu pediatrik xəstəxanası arasında əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.**

Fondun saytında verilən məlumata görə, imzalanma Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərovun Müqəddəs Taxt-Taca səfəri çərçivəsində baş tutub. Sənədi Prezidentin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov və Bambino Gesu xəstəxanasının rəhbəri Tiziano Onesti imzalayıblar.

Anlaşma memorandumu çərçivəsində Avropanın ən böyük pediatrik tibb müəssisəsi ilə təlim-tədris proqramlarının həyata keçirilməsi, molekulyar genetika və fərdi tibbi yanaşma sahəsində birgə tədqiqatların aparılması, eləcə də Azərbaycanda müalicəsi mümkün olmayan mürəkkəb klinik halların Bambino Gesu ilə birgə diaqnostikası və müalicəsi nəzərdə tutulur. Əməkdaşlığın əsas istiqamətlərini Azərbaycanda pediatriya sahəsində çalışan tibb işçilərinin peşəkar bilik və bacarıqlarının artırılması, molekulyar genetika, klinik diaqnostika və nadir xəstəliklər sahəsində birgə elmi və klinik fəaliyyətlərin təşkili, habelə genom diaqnostikası və fərdi tibbi yanaşmaların ölkəmizdə tətbiqinin genişləndirilməsi təşkil edir.



1869-cu ildə əsası qoyulan Bambino Gesu xəstəxanası hazırda uşaq xəstəlikləri üzrə Avropanın ən böyük xəstəxanası və tədqiqat mərkəzi, eyni zamanda, bütün növ uşaq orqan, hüceyrə və toxuma transplantasiyasını yerinə yetirmək üçün səlahiyyətli Avropa mərkəzlərindən biridir. Xəstəxana həmçinin 40-dan çox ölkənin iştirak etdiyi, nadir xəstəliklər üzrə ən böyük qlobal məlumat bazası olan «Orphanet»in qərargahıdır.

# Milli Məclisin Səhiyyə komitəsinin payız sessiyası üçün iş planı təsdiq edilib

**Milli Məclisin Səhiyyə komitəsinin 2025-ci ilin payız sessiyasında ilk iclası keçirilib.**

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitə sədri Əhliman Əmiraslanov gündəliyə 5 məsələnin daxil edildiyini bildirib.

Əvvəlcə komitə sədri Səhiyyə komitəsində 2025-ci ilin yaz və növbədənkənar sessiyaları dövründə görülən işlər barədə məlumat verib. Bildirib ki, ötən sessiyada komitədə 13 iclas keçirilib, ümumilikdə, 18 məsələ müzakirə olunub.

Sonra komitə sədri Səhiyyə komitəsinin 2025-ci il payız sessiyası üçün iş planının layihəsini təqdim edib. Qeyd olunub ki, payız sessiyasında komitəyə daxil olacaq qanun layihələrinə baxılması, müvafiq ictimai müzakirələrin keçirilməsi və digər məsələlər nəzərdə tutulub.

Gündəliyin üçüncü məsələsi - «Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev tərəfindən təqdim edilib. Bildirilib ki, qanun layihəsi həbs edilmiş, müəyyən müddətdə azadlıqdan



məhrumetmə və ömürlük azadlıqdan məhrumetmə növündə cəza çəkən şəxslərin tibbi müayinəsinin icbari tibbi sığorta çərçivəsində həyata keçirilməsi məqsədilə hazırlanıb. Qanun layihəsi həmçinin əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə də şamil ediləcək. Qeyd olunan kateqoriyaya aid şəxslərə tibbi xidmətin göstərilməsi xüsusi xarakter daşıdığından, müvafiq Qanuna 15-17.2.3-3-cü maddənin əlavə olunması və Xidmətlər Zərfində onlara göstəriləcək tibbi xidmətlərin tətbiqi şərtlərinin müəyyənləşdirilməsi nəzərdə tutulur.

Sonra komitə sədri gündəlikdəki digər məsələ - «Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin ictimai səhiyyə sahəsində sanitariya-epidemioloji xarakterli fövqəladə vəziyyətlərin qarşısının alınması və cavab tədbirləri üzrə əməkdaşlığı haqqında Saziş» barədə məlumat verib. 21 maddədən ibarət olan sazişin Müstəqil Dövlətlər Birliyinin məkanında bu sahədə əməkdaşlığın inkişafına xidmət etdiyini söyləyib.

Daha sonra «Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 113-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında məlumat verilib. Qeyd edilib ki, qanunda yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların adı dəyişdirilərək uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar kimi müəyyən edilib. Layihədə bu dəyişikliklərin digər qanunlarda da təsbiti təklif olunub.

AZƏRTAC xəbər verir ki, payız sessiyası müddətində Milli Məclisdə «Azərbaycanda vərəmlə mübarizə: mövcud vəziyyət, problemlər və onların həlli yolları» mövzusunda ictimai dinləmə keçiriləcək. Bu barədə Səhiyyə komitəsinin iclasında məlumat verən Əhliman Əmiraslanov qeyd edib ki, dünyada vərəmə yoluxma halları artır, vərəmin müalicəyə çətin tabe olan formaları ortaya çıxır, ona görə müvafiq qurumlarla birgə dinləmə keçirməyə ehtiyac var. Komitə sədri diqqətə çatdırıb ki, bununla bağlı məsələ komitənin 2025-ci ilin payız sessiyası üçün İş planına daxil edilib.

Müzakirələr zamanı Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov, üzvləri Pərvanə Vəliyeva, İlham Məmmədov, Günay Əfəndiyeva, Soltan Məmmədov, Müşfiq Məmmədli çıxış edərək fikirlərini bildiriblər, təkliflərini irəli sürüblər.

Tədbirin sonunda ötən sessiyada görülmüş işlər qənaətbəxş hesab edilib, komitənin 2025-ci ilin payız sessiyası üçün iş planının layihəsi təsdiq olunub və qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə edilib.

# «İşğaldan azad edilmiş ərazilərdə tibbi xidmətin təşkili» İşçi qrupunun ilk iclası keçirilib



**Səhiyyə Nazirliyində ölkəmizin işğaldan azad edilmiş ərazilərində tibbi xidmətin təşkili ilə bağlı yaradılmış İşçi qrupun ilk iclası olub.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, iclasda Səhiyyə, Müdafiə, Fövqəladə Hallar nazirliklərinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi, həmçinin Prezidentin işğaldan azad edilmiş rayon və şəhərlərdəki xüsusi nümayəndəliklərinin təmsilçiləri iştirak ediblər.

İşçi qrup Prezident İlham Əliyevin Sərəncamı ilə hazırlanmış «Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı»nın və «Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası»nın tələblərini yerinə yetirmək məqsədilə, səhiyyə naziri Teymur Musayevin əmri ilə yaradılıb.

İşçi qrupun əsas məqsədləri «Böyük Qayıdışa dair II Dövlət Proqramı» çərçivəsində mövcud mülki və hərbi tibbi infrastruktur, həmçinin inşası davam edən və planlaşdırılan tibbi obyektlər barədə məlumatın toplanması, köç qrafikinə uyğun olaraq, azad edilmiş ərazilərdə məskunlaşacaq əhalinin yaş və cins bölgüsünə görə tələb olunacaq tibbi xidmətlərin növü və həcminin müəyyən edilməsi, mülki və hərbi tibbi infrastrukturun səmərəli istifadəsi məqsədilə çarpayı fondunun optimallaşdırılması, tibb müəssisələrinin kadrlarla təminatı və tibbi heyətin fəaliyyətinin stimullaşdırılması, əhalinin dərman vasitələri ilə təminatında logistik zəncirin qurulması, əhali və tibb işçiləri arasında psixososial dəstək işinin aparılması və tibbi savadlılığın artırılması, sanitar aviasiyasından və teletibb imkanlarından istifadə perspektivlərinin qiymətləndirilməsidir.

Toplantıda işğaldan azad edilmiş ərazilərdə yaşayan əhali üçün tibbi xidmətlərin keyfiyyətinin və onlara əlçatanlıq səviyyəsinin təmin edilməsi, səhiyyə infrastrukturunun qurulması, müasir avadanlıqlarla təchizatı və kadr hazırlığı ilə bağlı ümumi yanaşmalar müzakirə edilib, vahid strategiyanın hazırlanması istiqamətində müzakirələr aparılıb.

Səhiyyə naziri Teymur Musayev çıxışında Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən «Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı» çərçivəsində səhiyyə sahəsinə xüsusi əhəmiyyət verildiyini vurğulayaraq bildirib ki, işğaldan azad edilmiş ərazilərdə tibbi xidmətin təşkili istiqamətində görüləcək tədbirlər bu sahədə II Proqramın uğurlu icrasına və regionda dayanıqlı sosial-iqtisadi inkişafın təmin olunmasına xidmət edəcək. Nazir həmçinin diqqətə çatdırıb ki, bu mühüm layihənin həyata keçirilməsini dəstəkləmək üçün bütün səylər səfərbər olunacaq və müvafiq qurumlarla sıx əməkdaşlıq ediləcək.

İşçi qrupun qarşıda duran məsuliyyətli vəzifələri yerinə yetirmək üçün təkmilləşdirilmiş plan və təkliflər hazırlayaraq, Qələbədən sonra bərpa və yenidənqurma işlərinin ən mühüm istiqamətlərindən biri olan səhiyyə infrastrukturunun qurulmasına əhəmiyyətli töhfə verəcəyi vurğulanıb.

İclasın yekununda qoyulmuş vəzifələrin icrası ilə bağlı müvafiq tapşırıqlar verilib.

# Səhiyyə Nazirliyində Azərbaycan - Albaniya səhiyyə əməkdaşlığı müzakirə olunub

**Azərbaycan səhiyyə naziri Teymur Musayev Albaniyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Besart Kadia ilə görüşüb.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, qonağı salamlayan səhiyyə naziri Teymur Musayev ölkələrimiz arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini diqqətə çatdırıb. Nazir dövlət başçılarının görüşlərinin və əldə



olunan razılaşmaların Azərbaycan - Albaniya münasibətlərini daha yüksək səviyyəyə qaldırdığını vurğulayıb.

Teymur Musayev həmçinin iki ölkə arasında səhiyyə sahəsində əməkdaşlıq əlaqələrinin inkişafı üçün geniş potensialın olduğunu bildirib. Nazirin sözlərinə görə, ölkələrimizin ali tibb mütəxəssislərinin davamlı peşə təhsili sahəsində müasir metodiki və elmi-praktik təcrübə mübadiləsi üçün bütün imkanlar mövcuddur. Bundan əlavə, müalicəvi turizm sahəsində də əməkdaşlıq potensialının olduğu diqqətə çatdırılıb.

Sonda Azərbaycanın səhiyyə naziri gələcəkdə əməkdaşlığın daha da inkişaf etdiriləcəyinə əminliyini bildirib.

Öz növbəsində səfir Besart Kadia dövlətlərarası əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayaraq, ölkələrimiz arasında dostluq münasibətlərinin mövcudluğunu qeyd edib. Diplomat öz ölkəsinin Azərbaycan ilə səhiyyə və tibb elmi sahəsində əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu bildirib.

Sonda tərəflər qarşılıqlı maraq kəsb edən digər məsələlərə dair fikir mübadiləsi aparıblar.

# Səhiyyə nazirinə yeni müşavir təyin olunub



Səhiyyə Nazirliyində yeni təyinat olub.

Nazirliyin mətbuat xidmətinin verdiyi məlumata görə, səhiyyə naziri Teymur Musayevin imzaladığı müvafiq əmrlə Elgün Nurulla oğlu Səmədov Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Aparatında nazirin müşaviri vəzifəsinə təyin edilib.

# Azərbaycan və Fələstin arasında səhiyyə sahəsində əməkdaşlıq müzakirə edilib



**Azərbaycan səhiyyə naziri Teymur Musayev Fələstinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Əhməd Metanini qəbul edib.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, qonaqları salamlayan səhiyyə naziri Teymur Musayev xalqlarımız arasında münasibətlərin inkişafında dövlət başçılarının müstəsna rolunu vurğulayıb. Nazir Azərbaycan ilə Fələstin arasında həm ikitərəfli, həm də bir sıra beynəlxalq təşkilatlar, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində səmərəli əməkdaşlığın mövcudluğunu məmnunluqla qeyd edib.

Teymur Musayev Azərbaycan və Fələstin arasında səhiyyə sahəsində də əməkdaşlığın inkişafı üçün potensialın olduğunu diqqətə çatdırıb.

Sonda Azərbaycanın səhiyyə naziri gələcəkdə əməkdaşlığın daha da uğurla inkişaf etdiriləcəyinə ümidvar olduğunu deyib.

Öz növbəsində Əhməd Metani Fələstinə göstərdiyi humanitar yardımlara görə Azərbaycan dövlətinə təşəkkürünü bildirib. Onun sözlərinə görə, ölkələrimiz arasında tarixi və ənənəvi dostluq münasibətləri mövcuddur: «Azərbaycan ilə Fələstin arasında münasibətlər həmrəylik, dostluq və qarşılıqlı hörmət prinsipləri çərçivəsində uğurla inkişaf edir».

Səfir Azərbaycanın Səhiyyə Nazirliyi ilə səmərəli əməkdaşlığın qurulmasında maraqlı olduğunu bildirib.

Görüş zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Səhiyyə naziri Teymur Musayev: Azərbaycanda səhiyyə islahatları milli standartlardan beynəlxalq standartlara keçidə yönəlib








**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında Bakıda I Azərbaycan Beynəlxalq İnvestisiya Forumu keçirilib. İqtisadiyyat Nazirliyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) təşkilatçılığı, Avropa Evi - «Ambrosetti»nin (TEHA) strateji tərəfdaşlığı, həmçinin «Euronews» və «Sea Breeze»in media və təşkilati dəstəyi ilə keçirilən forumda dövlət rəsmiləri, biznes liderləri və beynəlxalq investorlar iştirak ediblər.**

Tədbir çərçivəsində plenar iclaslar, institusional və panel sessiyalar, tematik müzakirələr, ölkəmizin investisiya imkanları və potensialına dair sərgi keçirilib.

İki gün davam edən forumda enerji, nəqliyyat, sənaye, kənd təsərrüfatı, rəqəmsal inkişaf, səhiyyə və daşınmaz əmlak sahələrində regional əməkdaşlıq və investisiya perspektivləri müzakirə olunub.

azpromo.az saytının verdiyi məlumata görə, I Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində ««Sea Breeze Health Valley»: Azərbaycanın tibbi mükəmməlliyə qlobal qapısı» mövzusunda panel sessiya keçirilib.

Sessiyada Azərbaycanın regional tibbi xidmətlər, əczaçılıq və biotexnologiya istehsalı, rəqəmsal səhiyyə həlləri üzrə mərkəzə çevrilməsi imkanları müzakirə olunub.

McK Partners şirkətinin tərəfdaşı Moniş Aroranın moderatorluğu ilə keçirilən panel sessiyasında Azərbaycan səhiyyə naziri Teymur Musayev çıxış edib.

Ölkəmizdə səhiyyənin inkişafının dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu qeyd edən nazir bildirib ki, son illərdə icbari tibbi sığortanın tətbiqi, tibb müəssisələrinin modernləşdirilməsi, rəqəmsal texnologiyaların səhiyyə sisteminə inteqrasiyası və insan kapitalına yönəlik islahatlar əhalinin sağlamlıq xidmətlərinə əlçatanlığını və keyfiyyətini əhəmiyyətli dərəcədə artırıb.

AZƏRTAC xəbər verir ki, səhiyyə naziri çıxışında Azərbaycanın təbabətin müxtəlif sahələrində xəstələr üçün bütün mümkün imkanların yaradılması istiqamətində addımlar atdığını deyib. Ölkəmizdə səhiyyə sahəsində islahatlar aparıldığını xatırladan Teymur Musayev onların məqsədinin milli standartlardan beynəlxalq standartlara keçmək olduğunu söyləyib: «Səhiyyənin inkişafı üçün ilk növbədə infrastruktur lazımdır. Bu istiqamətdə Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük irəliləyişə nail olunub».

Nazir bildirib ki, burada dayanıqlılıq üçün infrastruktur və qlobal inteqrasiya önəmlidir: «Beynəlxalq standartların qorunmasına gəlincə, burada qaydalara riayət etməliyik. Tibb müəssisələri beynəlxalq akkreditasiya almalıdır. Bütün tibb müəssisələrinin JCI, ISQUA kimi beynəlxalq tanınmış təşkilatlar tərəfindən akkreditasiyaya alınması məqsədəuyğun hesab edilir. Bu, göstərilən tibbi xidmətlərin ən yüksək standartlarının sübutu, həm də layihənin davamlılığının və rəqabət qabiliyyətinin zəmanətidir», - deyə nazir vurğulayıb.

Teymur Musayev qeyd edib ki, bu tədbirin beynəlxalq səviyyədə, yerli və xarici pasiyentlər üçün etibarlı məkan kimi tanıtdırdığı «Sea Breeze Health Valley» Azərbaycanın səhiyyəsinə yeni nəfəs verəcək: «Bu yalnız səhiyyə layihəsi deyil. Eyni zamanda, layihə bu sahənin inkişafının əsas sütununa çevriləcək və milli iqtisadiyyatın diversifikasiyasına töhfə verəcək. Bu layihə yeni səhiyyə iqtisadiyyatı və maliyyələşdirmə modelləri üçün əsas istiqamətlərdən biridir. Layihə tibbi turizm və elmi tədqiqatlar üzrə beynəlxalq mərkəz olmaqla yanaşı, regional tibb operatorlarını birləşdirəcək, yeni əməkdaşlıq imkanları yaradacaq».

Səhiyyə Nazirliyinin mətbuat xidməti məlumat verir ki, nazir çıxışında «Sea Breeze Health Valley» layihəsini tam dəstəkləyərək, onu «unikal bir təşəbbüs» adlandırıb, buna görə də qanunvericilikdə xüsusi yanaşma və normativ bazanın tətbiq ediləbiləcəyini deyib: «Əks halda, onun həyata keçirilməsi gecikmələr riski daşıyır. Nazirlik olaraq, layihəni dəstəkləmək üçün xüsusi uyğunlaşdırılmış normativ yanaşma qəbul etməyə tam hazırıq», - deyə Teymur Musayev əlavə edib. Nazir vurğulayıb ki, bu yanaşma layihənin sürətli və uğurlu həyata keçirilməsini təmin edəcək: «Nazirlik maraqlı tərəflərdən ibarət təşəbbüs qrupuna rəhbərlik edərək layihəyə tam dəstəyini bir daha təsdiqləyir».

Müzakirələrdə «Sea Breeze Health Valley» layihəsinin Azərbaycanın səhiyyə sisteminin gücləndirilməsi, sosial xidmətlərin və infrastrukturun inkişafı istiqamətində rolu diqqət mərkəzində olub. Çıxışlarda Azərbaycanın regional tibbi xidmətlər, əczaçılıq və biotexnologiya istehsalı, rəqəmsal səhiyyə həlləri üzrə mərkəzə çevrilməsi imkanları vurğulanıb.

Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov, Azərbaycan Dövlət Turizm Agentliyinin baş icraçı direktoru Florian Zenqstşmit, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin baş direktoru Zaur Əliyev, Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyinin direktoru Vüqar Qurbanov, İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondunun baş direktoru Yasin Cəlilov, «Sea Breeze Health Valley» layihəsinin rəhbəri Konstantin Qrinfeld, Sinqapurun «Don Agro International» şirkətinin baş icraçı direktoru Marat Devlet-Kildeyev, Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyli, Almaniyanın «Sana Hospital Group» şirkətinin direktoru Sven Heininger, «CaspiMayr» şirkətinin təsisçisi Həcər Cəfərova çıxışlarında dövlət strukturlarının, investorların və layihə rəhbərliyinin birgə əməkdaşlığı sayəsində beynəlxalq standartlara cavab verən tibbi klasterin yaradılması imkanlarına dair fikirlərini səsləndiriblər. Bildirilib ki, «Sea Breeze Health Valley» layihəsi ölkəmizin səhiyyə sisteminin modernləşdirilməsi, rəqəmsal tibbi xidmətlərin tətbiqi, əczaçılıq və biotexnologiya sahələrinin inkişafı baxımından mühüm addımdır.

I Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində keçirilən panel sessiyalarda bir sıra sənədlər imzalanıb. Bunların arasında təbabət sahəsinə aid olan sənədlər də var.

Tibbi turizm infrastrukturunun inkişafını nəzərdə tutan sənəd - «Tibbi turizmin inkişafı» və «Sea Breeze Health Valley» layihələri üzrə Əməkdaşlığa dair Anlaşma Memorandumu «Sea Breeze Resort»un təsisçisi və «Agalarov Development»in prezidenti Emin Ağalarov və «Sea Breeze Health Valley» şirkətinin rəhbəri Konstantin Qrinfeld tərəfindən imzalanıb.

Azərbaycan Biznesinin İnkişafı Fondu (ABİF) ilə «Sea Breeze Health Valley» («Sea Breeze Resort») arasında Potensial tibbi klaster layihələrinin birgə qiymətləndirilməsi üzrə Anlaşma Memorandumu tibbi klasterdə potensial layihələrin texniki-iqtisadi əsaslandırılmasını nəzərdə tutur. Sənədi ABİF-in icraçı direktoru Yasin Cəlilov və «Sea Breeze Health Valley» şirkətinin rəhbəri Konstantin Qrinfeld imzalayıblar.

«Sea Breeze Resort», «Sana Hospital Group» və «Don Agro International» arasında Əməkdaşlıq üzrə Anlaşma Memorandumu imzalanıb. Beynəlxalq çoxprofilli tibbi mərkəzin yaradılmasını nəzərdə tutan sənədi «Sea Breeze Health Valley»in rəhbəri Konstantin Qrinfeld, «Sana Hospital Group»un Beynəlxalq əlaqələr direktoru Sven Heininger və «Don Agro International»ın baş icraçı direktoru Marat Devlet-Kildeyev imzalayıblar.

# Akademik Mustafa Topçubaşovun 130 illiyinə həsr olunmuş beynəlxalq konfrans keçirilib

**Səhiyyə Nazirliyi və nazirliyin Akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin birgə təşkilatçılığı ilə görkəmli cərrah-alim, ictimai və dövlət xadimi Mustafa bəy Ağabəy oğlu Topçubaşovun 130 illiyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfrans keçirilib.**




Nazirliyin mətbuat xidməti xəbər verir ki, tədbirdə Azərbaycan Respublikası Prezidenti Aparatının Humanitar siyasət, diaspora, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, Səhiyyə Nazirliyinin və Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) rəhbər şəxsləri, həmçinin Azərbaycan, Türkiyə və Gürcüstanın tanınmış alimləri iştirak ediblər.

Konfransın əvvəlində Dövlət Himni səsləndirilib.

Tədbirdə açılış nitqi ilə çıxış edən səhiyyə naziri Teymur Musayev elmi-praktik konfransın Prezident İlham Əliyevin «Akademik Mustafa Topçubaşovun 130 illiyinin qeyd edilməsi haqqında» Sərəncamından irəli gələn vəzifələr çərçivəsində təşkil olunduğunu vurğulayıb, Azərbaycan Prezidentinin bu Sərəncamının Topçubaşovun Azərbaycan tarixindəki müstəsna yerini təsdiq etdiyini deyib. Nazirin sözlərinə görə, görkəmli alimin elmi dühası geniş spektrli, çoxsahəlidir: «Akademik Mustafa Topçubaşov adı təkcə öz dövrünün deyil, bütünlükdə Azərbaycan səhiyyə və tibb elminin tarixində əbədi həkk olunmuş alimdir».

Görkəmli alimin beynəlxalq miqyasda qazandığı nailiyyətləri xüsusilə vurğulayan nazir bildirib ki, o, cərrahların Lissabonda keçirilən XI Beynəlxalq Konqresində Beynəlxalq Cərrahlar Assosiasiyasının üzvü seçilib: «Bu da görkəmli alimin simasında dünya miqyasında Azərbaycan cərrahlıq elminə verilən yüksək dəyərdir».?

Diqqətə çatdırılıb ki, akademik Mustafa Topçubaşovun «Analgezin» adlı ağrıkəsicini kəşf etməsi İkinci Dünya müharibəsi illərində əvəzsiz xidmət olub. Hətta tanınmış sovet akademiki Pyotr Kupriyanov bu kəşfi «Bakı neftinin müharibədə tanklara verdiyi töhfəyə» bənzədib.? Teymur Musayev böyük alimin irsinin bu gün də öz aktuallığını qoruduğunu deyib: «Akademik Mustafa Topçubaşovun ömür yolu bu gün cərrahiyyə elmini özünə həyat yolu seçən gənc nəsil üçün böyük alimlik və insanlıq məktəbidir».

Xalqımızın görkəmli akademikin xatirəsini daim yaşatdığını, onun dövlətimiz tərəfindən əbədiləşdirildiyini xatırladan səhiyyə naziri onun adını daşıyan Elmi Cərrahiyyə Mərkəzinin açılışının Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə baş tutduğunu qeyd edib, mərkəzin hazırda bu yüksək etimada layiq səviyyədə fəaliyyətini davam etdirdiyini vurğulayıb.



AMEA-nın prezidenti İsa Həbibbəyli çıxışında deyib ki, Mustafa Topçubaşovun yaratdığı elmi məktəb onun yetirmələrinin cərrahiyyənin təməl biliklərinə mükəmməl bələd olmaları, təbabətdə mühüm yeniliklərə imza atmaları ilə əlamətdardır. Mustafa Topçubaşovun Azərbaycan Milli Elmlər Akademiyasının 15 təsisçisindən biri olduğunu xatırladan İsa Həbibbəyli görkəmli alimlə bağlı xatirələrini bölüşüb, onun hər zaman gənclərə istiqamət verərək onların elmə yönəlməsində xüsusi səy göstərdiyini deyib.

Akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin direktoru Rauf Ağayev görkəmli alimin elmi-pedaqoji və kadr hazırlığında, həmçinin ictimai-siyasi fəaliyyətində tarixi xidmətləri barədə məlumat verib: «Həm həkim, həm də alim kimi Mustafa Topçubaşovun irsi Azərbaycan səhiyyəsinin, xüsusən də cərrahiyyəsinin formalaşmasında əvəzsiz rol oynayıb».

Avrasiya Cərrah və Qastroenteroloqlar Assosiasiyasının sədri Yasemin Balaban çıxış edərək, akademik Mustafa Topçubaşovun cərrahiyyədə, ümumiyyətlə, təbabətdə, elmdə və kadr hazırlığındakı tarixi xidmətlərindən danışıb.

Mərkəzi Klinikanın baş direktorunun müavini Ceyhun Topçubaşov alimin ailəsi adından çıxış edərək, onun xatirəsinə göstərilən ehtirama görə dövlət başçısına, həmçinin tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirib.

Sonra akademik Mustafa Topçubaşova həsr edilmiş sənədli film nümayiş olunub.

Beynəlxalq elmi-praktik konfrans öz işini panel sessiyalarla davam etdirib. Sessiyalarda Azərbaycan, Türkiyə və Gürcüstanın tanınmış alimləri «Birinci sklerozan xolangit və birincili biliar xolangit», «Laparoskopik cərrahiyyə və stepler texnologiyasının fəsadları», «Kəskin nəfəs yolları pozulması sindromunun diaqnostikası, profilaktika və müalicə prinsipləri», «Kolorektal anastomozlarda tutmazlığın profilaktikası» və digər məruzələrlə çıxış ediblər.

# «Sağlam həyat tərzi» İşçi altqrupunun növbəti iclasında qarşıda duran məsələlər müzakirə olunub

**«Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası»nın layihəsinin hazırlanması üzrə yaradılmış «Sağlam həyat tərzi» İşçi altqrupunun növbəti iclası keçirilib.**



Səhiyyə Nazirliyinin mətbuat xidmətinin verdiyi məlumata görə, tədbirdə Nazirlər Kabinetinin, Səhiyyə, İqtisadiyyat, Gənclər və İdman, Ekologiya və Təbii Sərvətlər, Əmək və Əhalinin Sosial Müdafiəsi, Kənd Təsərrüfatı nazirliklərinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin yüksək vəzifəli nümayəndələri iştirak ediblər.

İclasda giriş sözü ilə İşçi altqrupunun rəhbəri, səhiyyə naziri Teymur Musayev çıxış edərək, Prezident İlham Əliyevin müvafiq Sərəncamının icrası məqsədilə «Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası»nın aidiyyəti tədbirlərinin effektiv reallaşdırılması üçün «Sağlam həyat tərzi» üzrə yaradılan İşçi altqrupunun öz fəaliyyətini intensiv şəkildə davam etdirdiyini diqqətə çatdırıb.

«Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası»nın uğurla icra olunduğunu və ölkəmizin sosial-iqtisadi inkişafına mühüm zəmin yaratdığını qeyd edən nazir bu inkişafın davamlılığının təmin edilməsi məqsədilə Azərbaycanda sağlam həyat tərzinin təşviqi istiqamətində həyata keçiriləcək tədbirlərin daha da təkmilləşdirilməsinin vacibliyini vurğulayıb.

İclasda Səhiyyə Nazirliyinin Hüquq şöbəsinin müdir müavini Humay Qurbanova «Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası»nın indiyədək icrası üzrə cari dövrdə əldə olunan nəticələr və təcrübələr barədə təqdimatla çıxış edib.

Sonda İşçi altqrup üzvlərinin təkliflərinə dair müzakirələr aparılıb, uğurlu beynəlxalq təcrübələrin tətbiqinin məqsədəuyğunluğu vurğulanıb, habelə gələcək fəaliyyət istiqamətləri üzrə həyata keçiriləcək tədbirlər müəyyənləşdirilib. İclasın sonunda qarşıda duran məsələlərin icrasına dair müvafiq qərarlar qəbul olunub.

# Azərbaycan səhiyyəsində yeni dövr:
# Milli Onkologiya Mərkəzində robotik cərrahiyyə əməliyyatları keçirilir

**Azərbaycanda ilk dəfə Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzində robot-assistentli laparoskopik əməliyyat uğurla həyata keçirilib. Bu hadisə ölkə səhiyyəsi üçün yeni, böyük perspektivlər vəd edən inqilabi mərhələnin başlanğıcı hesab olunur.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, Çin Xalq Respublikasının «Kangduo» şirkəti tərəfindən təqdim edilmiş robotik cihaz Azərbaycanda ilk dəfə olaraq Milli Onkologiya Mərkəzində quraşdırılıb. Əməliyyatdan əvvəl bütün tibb personalına, o cümlədən həkimlərə «Kangduo» şirkətinin Çindən və Qazaxıstandan dəvət olunmuş mütəxəssisləri tərəfindən xüsusi təlimlər keçirilib.

İlk əməliyyat robot-assistentli histerektomiya olub. Əməliyyatın ilkin mərhələləri Milli Onkologiya Mərkəzinin Baş direktoru, akademik Cəmil Əliyev tərəfindən icra edilib. Sonrakı mərhələlər isə Milli Onkologiya Mərkəzinin ixtisaslı həkimləri tərəfindən uğurla davam etdirilib.

Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev Milli Onkologiya Mərkəzində olub, orada radikal prostatektomiya üzrə robot-assistentli laparoskopik cərrahiyyə əməliyyatının keçirilməsi prosesi ilə tanış olub.

Mərkəzin Baş direktoru akademik Cəmil Əliyev həyata keçirilən fəaliyyətlər, elmi-tədqiqat işlərinin gedişatı və nanotexnologiyanın yeni nailiyyətlərinin tətbiqi ilə bağlı geniş məlumat verib.

Qeyd edilib ki, hazırda müasir robotik cərrahiyyə texnologiyaları sahəsində dünyanın müxtəlif ölkələrindən aparıcı mütəxəssislər vahid komandada birləşərək, onlayn rejimdə real əməliyyatlar həyata keçirirlər.









Bu, konkret xəstəyə minlərlə kilometr uzaqdan anında və yüksək dəqiqliklə təcili yardım göstərmək imkanı yaradır. Beləliklə, kritik vəziyyətdə olan pasiyent indi yalnız olduğu şəhərin və ya ölkənin imkanlarından asılı deyil. O, beynəlxalq səviyyəli həkimlərin bilik və təcrübəsinə robotlar vasitəsilə dərhal çıxış əldə edə bilər. Bu, tibbin gələcəyi deyil, artıq bu günün reallığıdır.

Hazırda Milli Onkologiya Mərkəzində robot-assistentli cərrahiyyənin inkişafı istiqamətində əlavə təlimlərin təşkili, ginekologiya, urologiya, abdominal cərrahiyyə və koloproktologiya şöbələrində yeni əməliyyatların həyata keçirilməsi planlaşdırılır.

Robot-assistentli cərrahiyyə prosesi ilə tanışlıqdan sonra səhiyyə naziri Teymur Musayev bildirib ki, Milli Onkologiya Mərkəzində ölkə səhiyyəsində növbəti mühüm bir ilkə imza atılıb. Onun sözlərinə görə, müasir cərrahiyyənin zirvəsi olan robotik cərrahiyyə üsulunun artıq Azərbaycanda tətbiq edilməsi çox əlamətdar hadisədir: «Bu gün yüksək standartlara cavab verən əməliyyatxanada ən müasir avadanlıqla icra olunan bir əməliyyat prosesinin şahidi olduq. Bu münasibətlə başda akademik Cəmil Əliyev olmaqla Milli Onkologiya Mərkəzinin kollektivini ölkəmizin səhiyyəsi üçün atılan böyük addım münasibətilə səmimi qəlbdən təbrik edirəm».

Nazir xüsusi olaraq vurğulayıb ki, Azərbaycanda səhiyyə sahəsinə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən göstərilən böyük diqqət və qayğı nəticəsində ən yüksək texnologiyalı müalicə üsullarının ölkə vətəndaşları üçün tətbiqi mümkün olub: «İnsan faktoru daim dövlətimizin başçısının diqqət mərkəzindədir. Prezident İlham Əliyevin siyasətinin mərkəzində məhz Azərbaycan vətəndaşının sağlamlığı, onun sosial rifahı dayanır. Bu baxımdan, bugünkü əməliyyat yeniliyə doğru atılan bir addımdır. Bundan sonra belə diaqnozlar qoyulan ölkə vətəndaşlarımız, demək olar ki, dünyada qabaqcıl texnologiya, ən müasir müalicə üsulu olan bu kimi əməliyyatların tətbiqi nəticəsində öz sağlamlıqlarına çox qısa bir müddətdə qovuşa biləcəklər».

Robotik cərrahiyyənin müasir tibbin ən yüksək texnologiya tətbiq edilən bir sahəsi olduğunu qeyd edən Teymur Musayev bu istiqamətdə görüləsi işlərin hələ çox olduğunu deyib: «Təbii ki, bu sahədə milli kadrların hazırlanması böyük əhəmiyyət kəsb edir. Biz əminik ki, Milli Onkologiya Mərkəzi artıq bu sahədə mütəxəssislərin hazırlanmasının ocağına çevriləcək. Həmçinin qeyd etmək istəyirəm ki, bu üsulun mərhələli şəkildə digər tibb müəssisələrində də tətbiqi nəzərdə tutulur».

Nazir bildirib ki, bu gün pasiyent üzərində icra edilən əməliyyatı izləmək onun üçün xüsusi əhəmiyyət kəsb edir. «Mən özüm də ixtisasca uroloqam. Robotik cərrahiyyə baxımından müxtəlif təkmilləşdirmə kurslarında da iştirak etmişəm. Bu gün pasiyent üzərində icra olunan əməliyyatın robot-assistentli laparoskopik metodun tətbiqi ilə həyata keçirilməsi ən az travmatik və orqan qoruyucu üsul hesab olunur. Pasiyentlər bu əməliyyatdan sonra çox qısa bir müddətdə normal həyata qayıda bilirlər. Bu, səhiyyəmiz üçün çox qürurverici hadisə və fərəh hissi yaradan məsələdir. Çox yaxşı haldır ki, radikal prostatektomiya əməliyyatlarında da robotik cərrahiyyə üsulunun tətbiqinə başlanılıb. Əməliyyatı icra edən bütün komanda yüksək ixtisaslı mütəxəssislərdir və onlar müvafiq hazırlıq kursu keçiblər. İnanıram ki, qısa bir müddətdə bu sahə üzrə digər mərkəzlərin mütəxəssislərinin də Milli Onkologiya Mərkəzində hazırlanması həyata keçiriləcək».

# Səhiyyə Nazirliyinin əməkdaşları Vətən müharibəsi qəhrəmanlarını yad ediblər

**44 günlük Vətən müharibəsinin başlanmasından beş il keçir.**





Azərbaycan hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müvafiq Sərəncamı ilə, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, hər il sentyabrın 27-si ölkəmizdə Anım Günü kimi qeyd olunur.

Bu il Anım Günündə Səhiyyə Nazirliyinin rəhbərliyi və kollektivi Zəfər parkını ziyarət edib. Parkın girişində xatirə daşı önünə gül dəstələri düzülüb, Azərbaycanın şəhid övladlarının nurlu xatirəsi dərin ehtiramla yad olunub.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusunun şücaəti, xalq və dövlətin birliyi nəticəsində tariximizin ən şərəfli səhifələrindən biri - zəfər və qəhrəmanlıq salnaməsi yazılıb. 27 sentyabr zəfərlə nəticələnən 44 günlük Vətən müharibəmizin başlanğıcı, ərazi bütövlüyümüzün bərpa edilməsinə, suverenliyin tam bərqərar olunmasına və torpaqlarımıza əsl sahiblərinin əbədi qaytarılmasına yol açan qürurverici gündür.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

# Azərbaycan və Macarıstan arasında səhiyyə sahəsində əməkdaşlıq memorandumu imzalanıb

Budapeştdə Azərbaycan Respublikası ilə Macarıstan arasında İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 11-ci iclası keçirilib.



İclasda Azərbaycanı Hökumətlərarası Komissiyanın həmsədri, maliyyə naziri Sahil Babayevin başçılıq etdiyi nümayəndə heyəti təmsil edib.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, tədbirdə ticarət, investisiya, energetika, səhiyyə, əmək, sosial müdafiə, elm, təhsil, mədəniyyət, turizm və qida təhlükəsizliyi kimi sahələrdə ikitərəfli əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

İclas çərçivəsində səhiyyə sahəsində əməkdaşlığa dair mühüm bir sənəd - Azərbaycan Tibb Universiteti, Macarıstanın Peç Universiteti, «PannonPharma» və «Scandens Pharmaceuticals» şirkətləri arasında dördtərəfli Anlaşma Memorandumu imzalanıb.

Memorandumun əsas məqsədi Azərbaycan və Macarıstanın tibb mütəxəssisləri üçün təlim proqramlarının təşkili və ali tibb təhsili müəssisələri arasında əməkdaşlığın genişləndirilməsi, həmçinin əczaçılıq sənayesində bilik və təcrübə mübadiləsinin təşviq edilməsidir.

# Qanunsuz tibb fəaliyyətinə qarşı mübarizə ilə bağlı ictimai müzakirə aparılıb

**Səhiyyə Nazirliyinin və Özəl Tibb Müəssisələri Assosiasiyasının (ÖTMA) birgə əməkdaşlığı çərçivəsində «Qanunsuz tibb fəaliyyətinə qarşı mübarizə: hüquqi çərçivə və ictimai məsuliyyət» mövzusunda ictimai müzakirə keçirilib.**






Nazirliyin mətbuat xidmətindən məlumat verilib ki, müzakirədə Səhiyyə Nazirliyinin rəsmiləri, həmçinin Milli Məclisin Səhiyyə komitəsinin, Baş Prokurorluğun, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak ediblər.

İctimai müzakirənin əsas məqsədi qanunsuz tibbi fəaliyyət hallarına qarşı mübarizə tədbirlərinin effektivliyinin artırılması, mövcud hüquqi çərçivənin təkmilləşdirilməsi, dövlət qurumları ilə özəl sektor arasında daha sıx dialoqun formalaşdırılması, özəl klinikaların reputasiyası, ictimaiyyət arasında onların etimadının möhkəmləndirilməsi və ictimai məsuliyyətin artırılması idir.

Tədbirdə ÖTMA-nın İdarə Heyətinin sədri Günel Əliyeva qanunsuz tibbi fəaliyyətin pasiyentlərin sağlamlığına vurduğu təhlükələrdən danışıb, mövcud problemlərin aradan qaldırılması üçün birgə səylərin vacibliyini vurğulayıb. Qeyd olunub ki, həm özəl tibb müəssisələri, həkimlər, həm də pasiyentlər öz hüquq və vəzifələrini bilməli, eyni zamanda, qanunvericiliyin tələblərinə mütləq qaydada riayət edilməlidir.

Səhiyyə Nazirliyinin Aparat rəhbəri Tural Babayev müzakirə olunan mövzunun aktuallığını vurğulayıb. O qeyd edib ki, əhalinin sağlamlığının qorunması sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı olan Səhiyyə Nazirliyi qanunsuz tibb fəaliyyəti ilə mübarizəyə 4 əsas prizmadan - qanunvericilik, nəzarət, dövlət qurumları arasında koordinasiyalı fəaliyyət və ictimai iştirakçılıq kimi baxış bucaqlarından yanaşır. Qanunsuz tibb fəaliyyətinə qarşı mübarizənin effektiv aparılması üçün aydın hüquqi və tənzimləyici çərçivənin mövcud olmasının, nəzarət mexanizmlərinin optimallaşdırılmasının, aidiyyəti dövlət qurumları ilə koordinasiyalı fəaliyyətlərin gücləndirilməsinin və rəqəmsal texnologiyaların tətbiqinin genişləndirilməsinin mühüm əhəmiyyət kəsb etdiyi diqqətə çatdırılıb. Eyni zamanda, həmin platformada ictimai iştirakçılıq amilləri, vətəndaş cəmiyyəti institutlarının cəlb olunması, maarifləndirmə tədbirləri, səhiyyə qurumları ilə pasiyentlərin arasında inamın formalaşdırılmasının vacibliyi qeyd edilib.

Milli Məclisin Səhiyyə Komitəsinin üzvü Pərvanə Vəliyeva, Səhiyyə Nazirliyinin Səhiyyə siyasəti şöbəsinin müdiri Ramik Quliyev və digər çıxış edənlər qanunsuz tibbi fəaliyyətin qarşısının alınması yolları, dövlət nəzarəti mexanizmləri, pasiyentlərin məlumatlılığının artırılması və maarifləndirmə kampaniyalarının əhəmiyyətini vurğulayıblar.

Məruzələr ətrafında geniş müzakirələr aparılıb, mövzuya dair suallar cavablandırılıb.

**25 sentyabr - Ümumdünya Əczaçılar Günüdür!**

# «Gen Pharma Caucasus»: Azərbaycanın əczaçılıq sənayesində yeni dövr

### Azərbaycanda əczaçılıq sahəsinə böyük investisiyalar qoyulur

Azərbaycanın bütün sahələrdə dinamik inkişafı, müsbət investisiya iqlimi və əlverişli biznes mühiti xarici və yerli sərmayədarlar üçün geniş imkanlar yaradır. Davamlı iqtisadi islahatlar, müasir infrastruktur və strateji coğrafi mövqe ölkəmizi regional biznes və sənaye mərkəzinə çevirir.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Səhiyyə Nazirliyinin dəstəyi ilə həyata keçirilən belə mühüm təşəbbüslərdən biri ölkənin əczaçılıq sənayesinin inkişafı üçün əhəmiyyətli hadisə olan «Gen Pharma Caucasus Manufacturing Operations» MMC-yə məxsus zavodun tikintisidir.

Bu layihə dövlətin səhiyyə və sənaye sahələrinə verdiyi strateji önəmin bariz nümunəsidir. 7 dekabr 2023-cü ildə təməli qoyulmuş bu iddialı layihə Pirallahı Sənaye Parkında yerləşən müasir istehsal müəssisəsinin yaradılmasını nəzərdə tutur. Layihənin birinci fazasının yekunu kimi, zavodun 2027-ci ilin ilk rübündə tam fəaliyyətə başlaması planlaşdırılır.

### Birgə investisiyalar və dövlət dəstəyi

İrimiqyaslı investisiya tələb edən bu layihə Azərbaycanın əczaçılıq sənayesinin gələcəyi üçün mühüm əhəmiyyət daşıyır. Bu strateji tərəfdaşlıqda Türkiyənin «Gen İlaç ve Sağlık Ürünleri», Azərbaycan Biznesinin İnkişafı Fondu və «SIA Pharmaceuticals» kimi aparıcı şirkətlər konsorsiumu iştirak edir.

Layihənin reallaşmasına İqtisadiyyat Nazirliyi tərəfindən hərtərəfli dəstək verilir, həmçinin Səhiyyə Nazirliyi layihənin beynəlxalq standartlara uyğun tənzimlənməsi və ölkənin səhiyyə sisteminə töhfə verməsi üçün yaxından iştirak edir. Bu əməkdaşlıq layihənin regional əczaçılıq sənayesinin inkişafında oynadığı açar rolu nümayiş etdirir.

### Beynəlxalq standartlara uyğunluq

«Gen Pharma Caucasus» zavodu Etibarlı İstehsalat Təcrübəsi (GMP) beynəlxalq standartlarına, o cümlədən EU GMP və US FDA GMP standartlarına tam cavab verəcək. Beynəlxalq sertifikatlaşdırma prosesi zavodun qlobal bazarda rəqabət qabiliyyətliliyini təmin edəcək və istehsal olunan dərman vasitələrinin digər ölkələrə ixracına imkan yaradacaq.

### Müasir istehsalat kompleksi və məhsullar

17000 $m^2$ sahəni əhatə edən və 8 hektar ərazidə yerləşən zavod ən müasir texnoloji həllər hesabına illik 50 milyon qutu dərman vasitəsi istehsal edəcək. 2500 palet tutumuna malik müasir anbar kompleksi effektiv logistikanı təmin edəcək. Layihə gələcəkdə üç əlavə istehsal sahəsinin genişləndirilməsi potensialı nəzərə alınaraq dizayn edilib.

Yeni müəssisədə geniş çeşidli həyati əhəmiyyətli dərman vasitələrinin istehsalı nəzərdə tutulur. Bunlara antibiotiklər, analgetiklər, ürək-damar, diabet, mədə-bağırsaq, sinir sistemi və immun sistemi xəstəliklərinin müalicəsində istifadə olunan preparatlar daxildir. İstehsalat xətti tablet, örtüklü tablet, kapsul (bərk və yumşaq), toz və maye suspenziyalar, saşe və siroplar kimi qeyri-steril bərk dərman formalarını əhatə edəcək.

### Ekoloji normalar və enerji effektivliyi

«Gen Pharma Caucasus» zavodu ciddi ekoloji standartlara uyğun layihələndirilib. Enerji baxımından effektiv texnologiyaların və emissiyaları minimuma endirən sistemlərin tətbiqi ətraf mühitə təsirin azaldılmasını təmin edəcək. Tullantı sularının təmizlənməsi və tullantıların utilizasiyası üzrə müasir sistemlər beynəlxalq ekoloji normalara tam uyğun olacaq ki, bu da layihəni davamlı və ekosistem üçün təhlükəsiz edir.

### Kadr hazırlığı

Bu cür yüksək texnoloji istehsal, ilk növbədə, orada çalışan personalın yüksək kvalifikasiyası və hazırlığını tələb edir. Layihə üzrə 400 nəfərə qədər personalın çalışması planlaşdırılır. İşçilərin yüksəkixtisaslı olmasını təmin etmək üçün kompleks təlim proqramı nəzərdə tutulub. Zavodun gələcək əməkdaşları «Gen İlaç» (Türkiyə) şirkətinin istehsalat sahələrində təlim keçəcək və praktik təcrübə əldə edəcəklər. Bu onların beynəlxalq standartlara uyğun işləməsinə və Etibarlı İstehsalat Təcrübəsini Azərbaycanda tətbiq etməsinə kömək edəcək.

Eyni zamanda, ölkənin bir sıra ali təhsil müəssisələri, o cümlədən Azərbaycan Tibb Universiteti (ATU) ilə birgə əməkdaşlıq proqramları hazırlanır. Gələcəkdə zavodun bazasında ATU-nun Əczaçılıq fakültəsinin tələbələri üçün istehsalat təcrübələrinin keçirilməsi nəzərdə tutulur ki, bu da potensiallı kadrların seçilməsinə imkan yaradacaq.



### Əczaçılıq müstəqilliyinə doğru addım və beynəlxalq bazarlara çıxış

Yeni zavodun fəaliyyətə başlaması ilə əhalinin əsas dərman vasitələrinə çıxışı xeyli asanlaşacaq. İdxaldan asılılığın azalması qiymətlərin sabit qalmasına, bəzi hallarda isə ucuzlaşmasına şərait yaradacaq. Vətəndaşlar dərmanlarını vaxtında və daha əlçatan şəkildə əldə edə biləcəklər. Bundan başqa, istehsalın ölkə daxilində qurulması dərmanların keyfiyyətinə və təhlükəsizliyinə nəzarəti gücləndirəcək. Şirkət yerli bazarın tələbatını ödəməklə yanaşı, istehsal olunan dərman vasitələrini Gürcüstan, Rusiya və Orta Asiya ölkələrinə ixrac etməyi planlaşdırır. Bu, Azərbaycanın əczaçılıq məhsullarının beynəlxalq bazarda mövqeyini möhkəmləndirəcək, satış həcmini artıracaq və regional iqtisadi əməkdaşlığa töhfə verəcək.

«Gen Pharma Caucasus» layihəsinin həyata keçirilməsi ilə Azərbaycan dərman vasitələrinin idxalından asılılığı azaltmaq və yerli istehsalı inkişaf etdirmək yolunda mühüm addım atır. Bu layihə təkcə ölkənin səhiyyə sistemini gücləndirmir, həm də Azərbaycanı regional əczaçılıq sənayesində əsas oyunçulardan birinə çevirir.

# Trampdan parasetamolla bağlı xəbərdarlıq

*Hamiləlik zamanı parasetamol autizm riskini artırır?*




**ABŞ Prezidenti Donald Tramp hamiləlik zamanı taylenol preparatının istifadəsinin doğulacaq uşağın sağlamlığı baxımından təhlükəli ola biləcəyini deyib. Onun sözlərinə görə, araşdırmalar əsas tərkib hissəsi parasetamol olan bu preparatın autizmlə mümkün əlaqəsi ola biləcəyini aşkara çıxarıb. ABŞ Prezidenti bildirib ki, buna görə yaxın vaxtlarda bu ölkədə həkimlərə bu preparatı hamilə qadınlara təyin etməmək tövsiyə olunacaq.**

Qeyd edək ki, parasetamol (digər adı asetaminofen) anilidlər qrupundan olan ağrıkəsici və qızdırma salıcı maddədir. O, təsiredici maddə olaraq bir çox dərman preparatının, o cümlədən taylenolun tərkibinə daxildir. ABŞ-də parasetamol hamilə qadınlara ağrı və qızdırma zamanı məsləhət görülən birinci sıra dərman olaraq istifadə edilib.



İndi isə son tədqiqatların nəticələrinə əsaslanan Donald Tramp Ağ Evdə çıxış edərkən hamiləlik zamanı parasetamol istifadəsinin uşaqlarda autizm riskini artırdığını bəyan edib. O əlavə edib ki, ABŞ-nin Qida və Dərman Nəzarəti İdarəsi (FDA) hamiləlik dövründə asetaminofenin qəbulunun uşaqlarda autizm riskini artıra biləcəyi barədə həkimləri məlumatlandıracaq. ABŞ Prezidentinin sözlərinə görə, əgər 20 il əvvəl ölkədə hər 10 min uşaqdan birinə autizm diaqnozu qoyulurdusa, hazırda bu inkişaf pozuntusu hər 31-ci uşaqda qeydə alınır. Bəzi ştatlarda, məsələn, Kaliforniyada isə autizm hər 12 oğlandan birində müşahidə olunur.

Tramp misal olaraq kənd yerlərində təcrid olunmuş şəkildə yaşayan amiş icmasını göstərib. Ağ Ev rəhbərinin əminliyinə görə, onlar parasetamoldan imtina etdikləri üçün autizm problemi ilə qarşılaşmırlar. Bundan əlavə, ABŞ prezidenti Kubada autizmin aşağı səviyyədə olduğunu bildirib, çünki bu ölkədə «parasetamol almağa pul yoxdur».

Amerika lideri vəd edib ki, ABŞ hakimiyyəti autizmə qarşı dərman tapacaq.

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) isə parasetamolun autizmin inkişafına təsiri ilə bağlı aparılan araşdırmaların hələlik inandırıcı sübutlar ortaya qoymadığını açıqlayıb.

Təşkilatın rəsmi nümayəndəsi Tariq Yaşareviç bu barədə Cenevrədə keçirilən brifinqdə danışıb.

Onun sözlərinə görə, bəzi müşahidə xarakterli tədqiqatlar hamiləlik dövründə parasetamol qəbulunun autizmlə bağlı ola biləcəyinə işarə etsə də, əldə olunan nəticələr ziddiyyətlidir:

«Bu cür asılılığın mövcudluğunu təsdiqləmək üçün bir neçə müstəqil araşdırmada eyni nəticələr alınmalıdır. Hazırkı məlumatların təkrarlanmaması səbəbindən parasetamol və autizm arasında səbəb-nəticə əlaqəsi barədə iddialara ehtiyatla yanaşmaq lazımdır».

Yaşareviç həmçinin qeyd edib ki, hamilə qadınlar istənilən dərmanı qəbul edərkən, xüsusilə də hamiləliyin ilk trimestrində diqqətli olmalıdırlar.







# Özəl tibb müəssisələri tibb heyəti ilə əmək müqaviləsi bağlamalıdır

**«Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən, planlı və plandankənar yoxlamalar zamanı özəl tibb müəssisələrinin sənədləri araşdırılır və qeydə alınır.**



Bunu Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzinin Hüquq şöbəsinin müdiri Tamam Həsənova deyib.

Onun sözlərinə görə, özəl tibb müəssisələrinin rəhbərləri tibb heyəti ilə mütləq əmək müqaviləsi bağlamalıdırlar. Lakin yoxlamalarda məlum olur ki, bəzi müəssisələr işçilərlə müqaviləsiz əməkdaşlıq edir.

Tamam Həsənova bildirib ki, yoxlamalar zamanı müəssisənin tibbi personalına dair şəxsi işlər araşdırılır. Bundan əlavə, əmək müqaviləsi bağlanmış şəxslərin məlumatları Səhiyyə Nazirliyinin Tibb işçilərinin reyestrində yoxlanılır. Bəzən işçilərin diplomu, sertifikasiyasının olmaması və ya müddətinin bitdiyi aşkarlanır. «Əgər müqavilə yoxdursa, pasiyentin sənədləri, qeydiyyat vərəqələri yoxlanılır. Pasiyentə tətbiq edilmiş bütün müayinələr, analizlər və müalicələr qeyd olunmalıdır. Qeydiyyatsız şəxslər aşkar edilərsə, reyestr vasitəsilə araşdırma aparılır. Vətəndaşlar, dövlət orqanları və ya media tərəfindən daxil olan əsaslı müraciətlər nəticəsində faktlar yoxlanılır. Həmçinin İnzibati Xətalar Məcəlləsinin 215.4-cü maddəsinə əsasən, ali və ya orta ixtisas tibb təhsili olmayan, habelə qanunda nəzərdə tutulmuş sertifikasiya şəhadətnaməsi olmayan və ya qüvvədə olmayan şəxslərin praktik tibb və əczaçılıq fəaliyyətinə buraxılmasına görə vəzifəli şəxslər 800 manatdan 1000 manatadək, hüquqi şəxslər 6000 manatdan 8000 manatadək məbləğdə cərimə edilirlər».

Tamam Həsənova qeyd edib ki, İnzibati Xətalar Məcəlləsinin 215.1-ci maddəsinə əsasən, ali və ya orta ixtisas tibb təhsili və qanunda nəzərdə tutulmuş sertifikasiya şəhadətnaməsi olmayan şəxslərin tibb xidməti göstərməsinə, habelə tibb işçisi tərəfindən ixtisasına uyğun olmayan tibbi xidmətin göstərilməsinə görə fiziki şəxslər 300-500, vəzifəli şəxslər 800-1000, hüquqi şəxslər 6000-8000 manat məbləğdə cərimə edilirlər. Bundan əlavə, İnzibati Xətalar Məcəlləsinin 215.4-cü maddəsinə əsasən, ali və ya orta ixtisas tibb təhsili olmayan, habelə qanunda nəzərdə tutulmuş sertifikasiya şəhadətnaməsi olmayan və ya qüvvədə olmayan şəxslərin praktik tibb və əczaçılıq fəaliyyətinə buraxılmasına görə vəzifəli şəxslər 800-1000 manat, hüquqi şəxslər 6000-8000 manat məbləğdə cərimə edilirlər.

# Avqustda 23 aptekdə yoxlama aparılıb

Bu ilin avqust ayı ərzində Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi (AEM) tərəfindən ümumilikdə 23 aptekdə yoxlama həyata keçirilib.

AEM-dən verilən məlumata görə, bu yoxlamalardan 12-si paytaxt Bakıda, 11-i isə ölkənin digər şəhər və rayonlarında yerləşən apteklərdə aparılıb.

Yoxlamaların 10-u planlı, 37-si plandankənar, 1-i isə yoxlamadan kənar təftiş xarakteri daşıyıb.

Aparılmış yoxlamalar nəticəsində 5 aptekdə müxtəlif nöqsanlar aşkarlanıb, bu hallarla bağlı İnzibati Xətalar Məcəlləsinin 452.1 və 452.3 maddələri üzrə müvafiq inzibati protokollar tərtib edilib.

## AŞAĞIDAKI TİBB MÜƏSSİSƏSİ GÖSTƏRİLƏN VAKANT YERƏ MÜSABİQƏ ELAN EDİR

### Mingəçevir Tibb Kolleci

Anatomiya və fiziologiya – 1.0
Patologiya– 1.0
Yoluxucu xəstəliklər – 1.0

*Ünvan: Naxçıvan küç., 25*
*Telefon: (02427) 6–18–69*

Baş redaktor:
N.MƏCİDOVA

Baş redaktorun müavini:
S.NƏBİYEVA

Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.

Təsisçi:
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.
Qeydiyyat nömrəsi: B92

Ünvan:
Həsən bəy Zərdabi küç., 96.
3-cü mərtəbə, 6-cı otaq

Tel./faks: (012) 596-06-61

E-mail: tibbqazeti@mail.ru
www.tibbqazeti.az

*Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər. Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.*